# ÖMRÜN QÜRUB ÇAĞI

## Qələndəri belə tanıdım...

**Onu 90-cı illərdən bəri tanıyırdım. Son illərdə "Azərbaycan" nəşriyyatında, Milli Elmlər Akademiyasının yeməkxanasında, "Elmlər Akademiyası" metrosunun qarşısında onunla görüşərdim. Bu görüşlər qısamüddətli olsa da, məndə dərin təəssürat yaradardı, tanımağa başlamışdım onu. Mən həmişə çalışıram ki, dostum, həmsöhbətim, həmkarım özü haqqında danışsın. Ona görə də Qələndərlə söhbət zamanı həyat yoldaşının pis mərəzə mübtəla olmasını, qardaşı Səməndərin silah götürüb torpaq uğrunda şəhid olmasını, qardaşının ailəsinin və övladlarının Qələndərə əmanət qalmasını, Yeni Günəşlidəki təmtəraqsız evində yaşamasını, "Həftə içi" qəzetinin redaksiyasında işləməsini (əvvəllər "Ədalət" qəzetinin cəfakeşi olmuşdu), nəhayət, bir neçə etibarlı dostunun və həmkarının olmasını öyrənmişdim. Vicdanlı jurnalistlərin az sayda olduğunu deyirdi.**

Qələndər Ağdamdan, Kolanı mahalından, Xaçınçaydan, onun zaman-zaman durula-durula axıb gedən saf suyundan, Kolanı igidlərindən, düşmənin vəhşiliyindən, ən çox şəhid vermiş Ağdam ellərindən və nəhayət, işğala məruz qalmış Qarabağdan, didərgin düşənlərin gec-tez yurd-yuvalarına qayıdacağından, daha nə bilim nələrdən danışırdı. Danışırdı və danışdıqca sübutlu-dəlilli sözləri bitib-tükənmək bilmirdi.

### *Mən onun söhbətlərindən doymurdum,*

çünki onun danışığı saf məntiqə, sağlam düşüncəyə, dünya kontekstində baş verən olaylara söykənirdi.

Bir dəfə yenə "Azərbaycan" nəşriyyatının birinci mərtəbəsində Qələndərlə görüşdüm. Əlində çanta vardı, qayğılı görünürdü. Elə bil harasa tələsirdi.

**- Dağlar oğlu, hara gedirsən?**

**- Qəzetin kompüterdə səhifələnməsi işini tamamlamışam. Elmlər Akademiyasının yeməkxanasında müxtəlif çeşidli xörəklər olur. Xüsusilə də orada bişirilən borşdan xoşlanıram. Orada birlikdə nahar etsək, yaxşı olar.**

Qələndər fikirli-fikirli dedi:

**- Axı birdən gecikərəm, çünki qəzetə material hazırlamalıyam. İstəmirəm kiminsə yanında üzükölgəli olum...**

**- Hansı mövzuda tapşırıq almısan?**

**- Rayon qəzetlərinin vəziyyəti barədə. Axı indi abunəçi, çap və yayım işi rayonlarda problemə dönüb.**

**- Bilirəm, - dedim.** "Kütləvi informasiya vasitələri haqqında" Qanun kölgədə qalıb. Bəziləri ya bu Qanundan xəbərsizdir, ya da bilirlər, əməl etmirlər. Çox şükür ki, yerli həyata daha çox yaxın olan rayon qəzetləri hələ çap olunur...

**- Gəlsənə növbəti yazını sizin "Lerik" qəzetinə həsr edək. Onsuz da rayon qəzetlərinin vəziyyəti eynidir...**

Razılaşdıq. O, bütün suallara cavab aldı. Çox keçmədi ki, "Həftə içi" qəzetində fotoşəklimlə bərabər, Qələndər Xaçınçaylının məndən aldığı müsahibə yarım səhifəyə yaxın həcmdə dərc olundu. Ən çox xoşuma gələn köklü problemlərin qaldırılması və rayon qəzetlərinin durumunun ümumiləşdirilməsi idi.

Və onu da qeyd edim ki, Qələndər Xaçınçaylı fərqli olaraq təmənnasız, yağsız-boyasız, qiymət verməyi bacaran vicdanlı və həqiqəti hər şeydən uca tutan jurnalist idi. O, "Tərəqqi" medalı ilə təltif edilmişdi. Prezident təqaüdçüsü, Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Azərbaycan Jurnalistlər Birliyinin (AJB) üzvü, media mükafatları laureatı idi. Əslində, Qələndər çoxdan "Əməkdar jurnalist" fəxri adına layiq olan bir qələm sahibi idi.

Bir dəfə mənimlə görüşərkən "Ömür mənalı keçəndə..." kitabını mənə uzadaraq dedi:

**- Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri, musiqimizin hamisi Şahin Qasımova həsr eləmişəm. Vaxtın olanda oxuyarsan.**

Kitabı oxudum. Hər sətrində Qələndərin dəst-xəttini gördüm. Öyrəndim ki, Qələndər 11 kitab müəllifidir. Həm şairlik, həm yazıçılıq, həm müxbirlik asan gəlməsin sizə...

### *Bu bizim taleyimizdir*

Mən jurnalistlərin həyatı ilə bağlı xarici mətbuatı, kitabları, elə özümüzünküləri imkan daxilində oxumuşam. Cek Londonun "Martin İden" romanını dəfələrlə oxumuşam. Roman o qədər doğma, məhrəm təsir bağışlayır ki, sanki mənim kimi jurnalistlərin həyatı ilə həmahəngdir. Bu mənada, "Ədalət"çi



Əməkdar jurnalist Faiq Qismətoğlunun digər yazıları kimi, "Dünyanın ən əzabkeş adamı" oçerkini həyəcanla, lakin diqqətlə oxudum. Bilmədiklərimi də bu yazıdan öyrəndim. Qələndər Xaçınçaylının həyatının əzablı və oddan-közdən, yağışdan-borandan, ildırımlardan keçən mənalı ömür yolu qırmızı xətt kimi keçir, yaddaşımıza sancılır. Faiq Qismətoğlu yazısında deyir: "Mən çox əzabkeş, zəhmətkeş insan tanıyıram. Amma Qələndər Xaçınçaylı kimi əzabkeş və zəhmətkeş adam görməmişəm". Müəlliflə razılaşmamaq mümkün deyil. Qələndərin əzablı yollarla keçən ömrünün hansından danışasan?

***İstedadlı, vicdanlı, böyük hörmət və ürək sahibi olan şair-publisist Qələndər Xaçınçaylı ruhani dünyaya qovuşsa da, o bizimlə bərabər, yaddaşımızda, qəzet və kitabların saralmış vərəqlərində, onu yaşadanların xatirələrində həmişə canlıdır...***

Qələndər Xaçınçaylının zəif, yorğun-arğın bədəni, öz ağrısını-acısını, dərd-sərini unudub başqasının göz yaşını silən, çətin yoluna nur səpən, özgə kədərinə qalxan olan fikirləri, düşüncələri, iti qələmi, sözü-sehri ilə düşməni zəbun edən, xəyalən də olsa, Ağdama, Kolanı elinə qayıdan Qələndərin yeganə qəlb həmdəmi və dayağı olan Aqil Abbasa xəstəxanadan zəng edib "Əmoğlu, qoyma ölüm, axı məndə gözü olanları kim saxlayar?" deməsi...

**Eh, ay Qələndər, dünyanı titrədən taclı düşmən səni də yaxalayıb ağciyərlərini sıradan çıxartdı. Kim bilir, bəlkə, sən tapşırıqla getdiyin yerdə o namərd koronavirus sənin zərif, həssas vücuduna ləkə salaraq nəfəs almağa imkan vermədi, səni aramızdan apardı! Çox heyif!**

### *Ruhun Kolanı səmasında uçur*

Onunla görüşəndə nədən danışsaq da, söz gəlib Qarabağın işğalı, şəhid ruhlarının fəryadı, didərgin həyatı, beynəlxalq təşkilatların bu biabırçı işğala göz yumması, düşmənin azğınlığı, atəşkəs rejimini tez-tez pozması, təxribatçı hərəkətlərə rəvac verməsi və s. üzərində dayanırdı. Deyirdi ki: "Doğma kəndimizi tez-tez yuxularımda görürəm. Sanki şəhidlərin ruhu bizi köməyə çağırır. Bir səs mənə deyir ki, ata-babalarımızın məzarları, yurd torpaqları düşmən tapdağı altında inləyir, onların ruhu göylərə qalxaraq fəryad edir. Deyir ki, biz heç zaman düşmənə əyilmərik. Bəs bu qovğalar, satqınlar, qorxaqlar hardandı?" Qələmdaşların, ruh qardaşların Aqil Abbas, Əbülfət Mədətoğlu, Faiq Qismətoğlu, Babək Yusifoğlu, Lətif Süleymanov, Nazim Ağamirov, Vaqif İsaqoğlu, Vəli Xramçaylı, Surxay Əlibəyli səni xatırladıqca darıxacaqlar. Bu dünyaya sən baxan kimi baxıb təəccüblə, heyrətlə dolu baxışlarını xərcləyəcəklər... Deyirlər, ölüm ruhların bayramıdır. Ruhlar insanı yaşadır, ilahi dərgaha səcdə edir.

Sənin də ömrünün qürub çağı beləcə gəldi. Ruhumuz ruhunla görüşməyə gələcək...

**İdris Şükürlü**
**Əməkdar jurnalist**
**Lerik**

Ədalət.- 2020.- 10 sentyabr. S. 6.